Embassy of the United States of America
Office of Public Affairs
Baku, Azerbaijan

111, Azadlıq Prospekti
AZ1007 Bakı, Azərbaycan
URL: http://azerbaijan.usembassy.gov/

Phone: +(99412) 498 03 35
Fax: +(99412) 498 93 12
Email: HuseynguliyevMM@state.gov

MƏTBUAT ÜÇÜN AÇIQLAMA

17 mart 2014-cü il

ABŞ-ın Azərbaycandakı səfirliyinin İsmayıllı iğtişaşı üzrə məhkəmə prosesi ilə bağlı bəyanatı

ABŞ-ın Azərbaycandakı səfirliyi REAL hərəkatının sədri İlqar Məmmədovun və Müsavat Partiyası başqanının müavini Tofiq Yaqublunun 23-24 yanvar 2013-cü ildə İsmayıllıda iğtişaşlara təhrik etməkdə şübhəli ittihamlarla uzun müddət azadlıqdan məhrum edilməsi ilə barədə 17 mart tarixli məhkəmə qərarından dərin məyusluq hissi keçirir.

Biz məhkəmə prosesindən əvvəl və məhkəmə prosesi ərzində Azərbaycan hökumətinin müxtəlif nümayəndələrinə açıq və ədalətli məhkəmə prosesinin keçirilməsinə ümid etdiyimizi bildirmişdik. Azərbaycan hökumətinin ABŞ və digər beynəlxalq müşahidəçilərə məhkəmə prosesini müşahidə etməyə icazə verməsini bəyənməklə yanaşı digər müşahidəçilər və biz şahid ifadələrində və məhkəmə prosesində ciddi pozuntular müşahidə etmişik. Müşahidələrimiz belə bir qənaətə gəlməyə əsas verir ki, məhkəmənin qərarı sübutlara əsaslanmayıb və siyasi xarakter daşıyır.